**Doktoranturaya müraciət zamanı portal.edu.az-da tələb olunan sənədlər barədə**

1. **Kadrların şəxsi-qeydiyyat vərəqinin surəti**
   İşləyənlər bu sənədi iş yerlərindəki kadrlar şöbəsindən ala bilərlər. İşləməyənlər isə bu linkdəki formanı doldurub istifadə edə bilərlər. Forma Azərbaycan dilində yazılmalıdır.
2. **Tərcümeyi-halın surəti**
   Azərbaycan dilində CV formatında sənəd yüklənilməlidir.
3. **İş yerindən xasiyyətnamənin surəti**
   Tələb olunan sənəd deyil.
4. **İş stajı olanlar üçün əmək kitabçasından çıxarışın surəti**
   İş stajı olmayanlar üçün tələb olunan sənəd deyil. İşləyənlər kadrlar şöbəsindən bu sənədi ala bilərlər. Bu sənəd Azərbaycan dilində olmalıdır.
5. **Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat**
   ***Beynəlxalq münasibətlər və ya Dövlət idarəçiliyi ixtisasları üçün***
   Bu hissəyə ADA tələbinə uyğun, ingilis dilində "Research Statement" yüklənilməlidir. Instructions for Research Statement: Please outline your past, current, and future research goals and your research area, along with your motivation for pursuing PhD research. The research statement should be between 500 and 1,000 words. If you have publications, please attach list of publications to the Research Statement as well.
   ***Ümumi İqtisadiyyat ixtisası üçün***
   Buraya magistr dissertasiya işi və ya ona ekvivalent başqa bir tədqiqat işi yüklənilməlidir.
6. **Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti**
   Bakalavr və magistr diplomları və diploma əlavələrin Azərbaycan dilində olan və notarial qaydada təsdiqlənmiş versiyası. Xaricdə təhsil almış şəxslərin Nazirlik və ya TKTA tərəfindən verilmiş şəhadətnamələri təqdim olunmalıdır. Xarici diplomların yerli təsdiqi olmadıqda onlar qəbul olunmur. Həm bakalavr, həm də magistr diplomları və diploma əlavələri (transkriptlər) təqdim olunmalıdır.
7. **Digər**
   Buraya elmi rəhbərin təsdiq məktubu yüklənilməlidir. İlkin müraciət mərhələsində müraciətçi buraya heç bir sənəd yükləmir. Sənədlərə ilkin baxışdan (ehtiyac olarsa ilkin müsahibədən) sonra müsbət rəy olarsa, elmi rəhbərin təsdiq məktubu verilir. Belə olan halda müraciətçinin sənədləri geri qaytarılır. Müraciətçi elmi rəhbərin razılıq məktubunu yükləyərək, müraciətini tamamlayır.